2020-ci ilin yanvar-fevral aylarında ev təsərrüfatlarında sənaye məhsulu istehsalı, habelə hüquqi şəxs yaratmadan fiziki şəxs kimi sənaye sahəsində fəaliyyət göstərənlərin işi də nəzərə alınmaqla 175957 min manatlıq sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 1,1 faiz çoxdur. Sənayedə istehsalın 95,2 faizi malların, 4,8 faizi isə xidmətlərin payına düşmüşdür.

Sənayenin dövlət sektorunda 11741,2 min manatlıq, qeyri-dövlət sektorunda 164215,8 min manatlıq məhsul istehsal edilmişdir.

2020-ci ilin yanvar ayında muxtar respublikanın sənaye müəssisələrində 16576 nəfər işçi çalışmışdır ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 1,5 faiz çoxdur. Sənaye sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 10,5 faiz artaraq 410,5 manat olmuşdur.